# BEYNƏLXALQ AUDİT STANDARTLARININ TƏTBİQİNİN HƏYATA KEÇİRİLMƏSİ HAQQINDA

***Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2009-cu il 30 dekabr tarixli 206/7 saylı qərarı***

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı fəaliyyət Planının (2007-2011-ci illər)" 45-ci ("Beynəlxalq audit standartlarının tətbiqinin həyata keçirilməsi") bəndinin icrasını, beynəlxalq audit standartlarının tətbiqi ilə əlaqədar auditin normativ hüquqi bazasının və auditin keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsini, auditor kadrlarının yenidən hazırlanması sahəsində kompleks tədbirlərin görülməsini təmin etmək məqsədilə Auditorlar Palatasının Şurası **qərara alır:**

1. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 1 yanvar 2010-cu il tarixindən etibarən beynəlxalq audit standartlarının tətbiqinə başlansın.
2. Auditorlar Palatası Şurasının müvafiq qərarları ilə 1996-2005-ci illərdə qəbul edilmiş milli audit standartlarının tətbiqi 2010-cu il yanvarın 1-dən etibarən dayandırılsın.